**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın sədrinin "  24  "dekabr 2014-cü il tarixli  358K  № li əmri ilə təsdiq edilmişdir**

# VƏZİFƏ TƏLİMATI

| | |
|---|---|
| **Dövlət orqanının adı:** | Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya |
| **Şöbənin adı:** | İnsan resurslarının idarəedilməsi və dövlət qulluğuna kadrların seçilməsi şöbəsi |
| **Sektorun adı** | Dövlət qulluğuna kadrların seçilməsi sektoru |
| **Vəzifənin adı:** | baş məsləhətçi |
| **Vəzifə maaşı:** | 530 manat |
| **Vəzifə təsnifatı:** | inzibati vəzifələrin 5-ci təsnifatı |
| **İş yerinin ünvanı:** | Bakı şəhəri, Nərimanov rayonu, K.Rəhimov küçəsi, 874-cü məhəllə |
| **Bilavasitə tabe olduğu şəxs:** | şöbə müdiri və sektor müdiri |
| **Qulluq funksiyaları:** | – dövlət qulluğuna kadrların seçilməsi sahəsində dövlət siyasətinin formalaşmasına və bu siyasətin həyata keçirilməsinə dair təkliflərin hazırlanması;<br>– dövlət orqanlarına metodik yardımın göstərilməsi və onların istiqamətləndirilməsi;<br>– sahə üzrə fəaliyyətin metodiki və normativ-hüquqi təminatının təkmilləşdirilməsinə dair təkliflərin verilməsi;<br>– dövlət qulluğuna kadrların seçilməsi məqsədilə müsabiqə və müsahibələrin təşkil edilməsi;<br>– dövlət qulluğunun kadr təminatının təhlili və proqnozlaşdırılması sahəsində təkliflərin hazırlanması;<br>– dövlət qulluğu və dövlət qulluğuna qəbul ilə əlaqədar müsahibə və müsabiqə qaydalarının təkmilləşdirilməsinə dair təkliflərin verilməsi;<br>– dövlət qulluğuna qəbul ilə əlaqədar məlumat toplularının, müsahibə proqramlarının hazırlanmasında və təkmilləşdirilməsində iştirak edilməsi;<br>– sahə üzrə hesabatlar, arayışlar və məlumatların hazırlanması;<br>– dövlət qulluğuna qəbulun keçirilməsi sahəsində illik hesabatların təqdim edilməsi;<br>– vətəndaşlardan və təşkilatlardan daxil olan müraciətlərə baxılması. |
| **Təhsil və ixtisas tələbləri:** | hüquqşünaslıq, beynəlxalq hüquq, beynəlxalq münasibətlər, psixologiya, tarix, politologiya, fəlsəfə, jurnalistika, sosiologiya, dilşünaslıq, filologiya, regionşünaslıq və iqtisadiyyat və idarəetmə ixtisas istiqamətləri üzrə ali təhsil |
| **Staja dair tələb:** | idarəetmə sahəsində azı 2 il iş stajı |
| **Kompüter biliklərinə dair tələblər:** | (MS WINDOWS, MS OFFICE, INTERNET və s.) – yüksək səviyyədə |
| **Xarici dil bilikləri:** | rus dili (orta-yüksək səviyyədə), ingilis dili (orta səviyyədə) |
| **Təşkilatçılıq səriştəsi:** | yüksək səviyyədə |
| **Problemi həll etmək səriştəsi:** | yüksək səviyyədə |
| **Qərarvermə qabiliyyəti:** | yüksək səviyyədə |
| **Ünsiyyət qabiliyyəti:** | yüksək səviyyədə |

**Qeyd:** "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən bu vəzifə müsabiqə və ya müsahibə yolu ilə tutulur.